# 20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR!


# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №1 (7335) | 18 yanvar 2014-cü il | şənbə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


# 2014-CÜ İLİN AZƏRBAYCAN RESPUBLİKASINDA «SƏNAYE İLİ» ELAN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ötən əsrin 70-80-cı illərindən başlayaraq Azərbaycanda sənayeləşmə siyasəti geniş miqyasda həyata keçirilmiş, yüzlərlə sənaye müəssisəsi inşa edilmiş, bu sahədə güclü potensial yaradılmışdır.

Son on ildə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmış, sənaye məhsulları istehsalının həcmi 2,7 dəfə artmışdır. Bu müddət ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilmiş, yeni iş yerləri açılmış, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Hazırkı mərhələdə müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədi ilə bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edəcək imkanların formalaşdırılması zəruridir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq ölkə iqtisadiyyatının sənayeləşməsini sürətləndirmək, Azərbaycanın güclü sənaye mərkəzinə çevrilməsi üçün mövcud potensialdan daha səmərəli istifadə etmək məqsədi ilə **qərara alıram:**

1.2014-cü il Azərbaycan Respublikasında «Sənaye ili» elan edilsin.

2.Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi 2014-cü ilin Azərbaycan Respublikasında «Sənaye ili» elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»nın layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2.bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 10 yanvar 2014-cü il**

# ÜMUMŞƏHƏR TƏDBİRİ

**Ötən il dekabrın 29-da şəhər Mərkəzi Mədəniyyət evində Şirvan şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününə və Yeni il bayramına həsr olunmuş ümumşəhər tədbiri keçirildi.**

Mədəniyyət evinin qarşısında qurulan əlvan Yolkanın ətrafında nağıl personajları və yeni ilin simvolu olan Şaxta baba və Qar qız bura toplaşanları öz şən məzhəkələri ilə əyləndirirdilər.

Ətrafa yayılan musiqi sədaları altında rəqs edən uşaqların sevinci üzlərindən oxunurdu. Şəhərin əsasən «Köhnə şəhər» massivinin əhalisinin toplaşdığı bu şənlik hər kəsin qəlbində sevinc yaratmışdı. Saat 15:00-da Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov Şura üzvləri, hüquq mühafizə orqanlarının rəhbərləri ilə birlikdə tədbirə təşrif buyurdu.

Başçı əvvəlcə yolkanın ətrafına toplaşan şəhər sakinlərini və uşaqları salamladı, onları qarşıdan gələn 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik etdi. Başçı şəhər 1 nömrəli uşaq bağçasının körpə fidanlarının ifasında rəqsi maraqla izlədi.

Sonra isə mərkəzi Mədəniyyət evinin akt zalında ümumşəhər tədbiri başladı.



Tədbir açıq elan olunduqdan sonra ilin yekunları ilə bağlı çıxış edən İcra Hakimiyyətinin başçısı M.T.Camalov şəhər sakinlərini 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik etdi. Onlara səadət, xoşbəxtlik, cansağlığı arzuladı.

Sonra başçı dedi ki, 1991-ci ilin oktyabrın 18-də xalqımız müstəqillik qazansa da, cəmiyyətdə birlik olmamış, ölkə parçalanmaq, müstəqillik itirilmək təhlükəsi qarşısında idi. O dövrdə diaspor və lobbi quruculuğuna diqqət yetirilməmişdi. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi 1991-ci il dekabrın 16-da «Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü haqqında» qərar qəbul etdi. O vaxtdan xalqımız, müxtəlif ölkələrdə yaşayan soydaşlarımız 31 dekabrı milli həmrəylik günü kimi qeyd edirlər.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə respublikaya ikinci dəfə rəhbərliyi dövründə Azərbaycan diasporu və lobbisinin formalaşdırılması mühüm dövlət siyasəti səviyyəinə qaldırılmışdır.

2001-ci ildə (noyabrın 6-10) Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Ulu öndər Heydər Əliyev qurultayda çıxış edərək dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dilinin və milli –mənəvi dəyərlərimizin qorunub saxlanılması barədə tapşırıq və tövsiyələrini verdi.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursu, diaspor quruculuğu işi onun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir.

Prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyeva xarici ölkələrdə olarkən soydaşlarımızla görüşür, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün onlara lazımi ədəbiyyatlar, təbliğat və təşviqat materialları ilə köməklik göstərir. M.T.Camalov ilin yekunlarından danışarkən uğurlardan ətraflı söz açdı. O, ölkədə aparılan sürətli inkişafdan bəhs edərək bu inkişafın Şirvan şəhərinin timsalında da açıq-aydın göründüyünü qeyd etdi. M.T.Camalov azərbaycançılıq siyasətinin bu gün də ölkə başçısı tərəfindən uğurla davam etdirildiyini bildirdi.



Başçı çıxışında ölkə Prezidenti cənab İlham Əliyevin Şirvana etdiyi səfərlər barəsində ətraflı məlumat verərək şəhərimizin sürətli inkişafında zəhməti olan bütün insanlara təşəkkür etdi.

Daha sonra başçı 2013-cü ildə respublika və beynəlxalq miqyaslı yarışlarda şəhərimizi layiqincə təmsil edərək yüksək nəticələrə nail olmuş idmançıları və onların məşqçilərini xüsusi hədiyyələrlə mükafatlandırdı, onlara növbəti ildə də nailiyyətlər arzu etdi.

Alqışlarla qarşılanan mükafatlandırma mərasimindən sonra 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Şirvan şəhər ictimaiyyəti adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu oxundu.



Tədbirin rəsmi hissəsi yekunlaşdıqdan sonra söz televiziya Muğam müsabiqəsinin qaliblərinə-istedadları ilə seçilən muğam ifaçılarına verildi. Nigar Şabanova, Mirələm Mirələmov və Kamilə Babayevanın ifasında səslənən muğam və təsniflər qonaqlar tərəfindən alqışlarla qarşılandı. Mirələm Mirələmovun ifa etdiyi «Şirvan şikəstəsi» isə uzun müddət hafizələrdən silinməyəcək gözəllikdə idi.

**Nurlan QƏDİMOV,**
**Ə.AXUNDOV (foto)**



# 1№-Lİ SAHƏ İNZİBATİ ƏRAZİ DAİRƏSİ NÜMAYƏNDƏLİYİNİN 2013-CÜ İL ÜZRƏ İLK HESABATI

**Yanvarın 14-də mərkəzi Mədəniyyət evində Şirvan şəhər İcra Hakimiyyəti başçısının 1№-li Sahə İnzibati Ərazisi Dairəsi nümayəndəliyinin 2013-cü il üzrə hesabatı dinlənilmişdir.**

Hesabatla nümayəndəliyin sədri H.Hüseynov məruzə etmişdir.

Məruzəçi dedi ki, ölkəmiz sürətlə inkişaf edir. Adamların rifah halının yaxşılaşdırılması istiqamətində bütün addımlar öz müsbət nəticələrini verməkdədir. Ölkə iqtisadiyyatının sürətlə inkişafında regionların da özünəməxsus payı var. Sürətli inkişafın yaşandığı şəhərlərdən biri də bizim Şirvandır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2012-ci il 6 iyun tarixli 648 №-li Fərmanı ilə təsdiq edilmiş «Yerli icra hakimiyyətləri haqqında» Əsasnamə, Şirvan şəhər İcra Hakimiyyəti başçısı Mərdan Camalovun 6 dekabr 2012-ci il tarixli, 81 №-li sərəncamı ilə yaradılmış Şirvan şəhər İcra Hakimiyyəti başçısının 1№-li Sahə İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyi 1 mart 2013-cü il tarixdən etibarən fəaliyyətə başlayıb.

Fəaliyyətə başladığımız dövrdən etibarən nümayəndəliyin ərazisində daimi yaşayış evləri və çoxmənzilli yaşayış binalarındakı mənzillər üzrə təsərrüfatbaşına uçot kitablarının, habelə təsərrüfat üzvlərinin və müvəqqəti yaşayan şəxslərin siyahısını aparmışıq.

Bu gün şəhərimizdə 9352 fərdi, 386 çoxmərtəbəli binalarda 8774 təsərrüfat olmaqla cəmi 18126 təsərrüfat, 75083 nəfər əhali vardır. Bunlardan 41391 nəfəri uşaq və gənclərdən ibarətdir. Əhalinin 58345 nəfəri əmək qabiliyyətlidir.

2013-cü ilin Prezident seçkilərinə hazırlıqla əlaqədar, iş planımıza əsasən, seçicilərin siyahısının dəqiqləşdirilməsi işlərini aparmış səs vermə hüququ olan seçicilərin sayını müəyyənləşdirərək 46 saylı Şirvan seçki dairəsinə təqdim etmişik.

Xidmətə başladığımız dövrdən bu günədək 8734 nəfər vətəndaş nümayəndəliyə arayış üçün müraciət etmişdir. Həmin vətəndaşların lazımi sənədləri, yoxlanılmaqla arayışla təmin olunmuşdur.

Respublika daxilindən, xaricindən və Şirvan şəhəri ərazisində yerləşən müxtəlif təşkilatlardan bu günə kimi nümayəndəliyə 342 məktub daxil olmuşdur. Ünvanlarda və yaşayış massivində şifahi sorğu aparılaraq həmin məktublara operativ cavablar verilmişdir.



1998-ci il təvəllüdlü gənc hərbi çağırışçıların sənədləri hazırlanıb Şirvan şəhər Hərbi komissarlığına təqdim olunmuşdur.

Nümayəndəliyimizə 15 yazılı, 28 şifahi şikayət daxil olmuşdur. Bunların bəziləri operativ şəkildə öz həllini tapmış, digərləri isə aidiyyatı orqan və təşkilatlara göndərilmişdir.

Kommunal Kombinatı Müəssisəsi tərəfindən şəhər ərazisində təmizlik, küçələrin işıqlandırılması və digər sahələrdə görülən işlərə tərəfimizdən nəzarət olunmuş, məişət tullantılarının gündəlik daşınması işi təşkil olunmuş, işıqlanma sahəsində yaranan nöqsanlar aradan qaldırılmışdır.

Şəhərin M.Mirzəyev, M.Qədirov, 1 May, Xanlar küçələrində 6 ədəd qanunsuz zibillik ləğv edilmişdir. Xidməti ərazidə 149 ədəd metal qutu qoyulmuş, 69 ədəd daş tutumlu zibilxana vardır. Metal qutular daimi olaraq təmir edilib, işlək vəziyyətə gətirilir.

Cari ildə müəssisəyə 77 ədəd metal qutu verilmişdir. Bütün bunlara baxmayaraq müəssisənin xidməti ərazisində məişət tullantılarının daşınması şəhərin mərkəzi hissələrində normal vəziyyətdə olsa da, kənar ərazilərdə tullantılar vaxtında götürülmür. Daş tutumlu zibilxanaların təmirə ehtiyacı vardır.

Etibarlı enerji təchizatının təmin olunması üçün şəhər ərazisindəki işıq nöqtələrində baş verən qüsurlar təcili olaraq aradan qaldırılır, elektrik yüklərinin ölçülməsi, fazalar arasında bərabər bölünməsi təmin olunur.

Mənzil Təsərrüfatı İdarəsinin balansında olan binalarda 17500 kv. metr dam örtüyü şüşə rubberoit materialı ilə əsaslı təmir edilmişdir. 20 Yanvar 2/1 saylı binalarda (14 ədəd balkon) 4-cü mərtəbənin balkonları çardaqlı dəmir profil və öndülün dam örtüyü quraşdırmışdır.

Ticarət obyektləri ilə müqavilələr ya bağlanmır, ya da cüzi məbləğə bağlandığından həmin ərazilərdə sanitar qaydaları pozulur. Bu da xidməti ərazinin çirklənməsinə gətirib çıxarır. Bu sahədə evlər müdirlərinin işi qənaətbəxş deyil. Bu halı Kommunal Kombinatı Müəssisəsinin sahəsinə də aid etmək olar.

Şəhər Yaşıllaşdırma təsərrüfatı İdarəsi 302 ha sahəyə xidmət göstərir. Təsərrüfat tərəfindən şəhər ərazisində yaşıllıq sahələrinin artırılması, gül-çiçək kollarının, ağacların əkilməsi, suvarılması, aqrotexniki qaydada qulluq işləri görülmüşdür.

Mövsümlə əlaqədar olaraq su kanalları bərpa edilmiş, su boruları və vintillər yenisi ilə əvəz edilmişdir. İdarəyə məxsus su maşınları işlək vəziyyətə gətirilmiş, su boruları olmayan sahələrdə ağaclar və yaşıllıqlar müntəzəm olaraq su maşınları ilə suvarılmışdır.

Buna baxmayaraq bəzi sahə rəisləri xidməti ərazilərində işləri lazımi səviyyədə qura bilməmiş, nəticədə H.Əliyev adına parkın və M.Ə.Rəsulzadə adına parkın sahə rəisləri işdən azad edilmişlər.

2013-cü ildə Şirvan şəhərində uğurla həyata keçirilmiş tikinti abadlıq sahəsində yüksək nailiyyətlər əldə edilmişdir. Belə ki, H.Əliyev meydanına yeni tamet tavalar döşənmiş, 2 ədəd fontan əsaslı təmir edilmişdir. G.Şıxbalaoğlu küçəsindəki fontan əsaslı təmir olunmuş, 12 ədəd 3 lampalı işıq dirəkləri quraşdırılmışdır.

N.Nərimanov parkında 2408 m2 sahəyə tamet tavalar döşənmiş, yeni fontan kompleksi quraşdırılmışdır. 3 ədəd uşaq əyləncə qurğuları quraşdırılaraq şəhər sakinlərinin istifadəsinə verilmişdir.

İ.Qayıbov parkında 1207 m2 sahəyə tamet tavalar döşənmiş, 406m2 istinad divarı fasad boyası ilə rənglənmiş, 320 m2 divar və pilləkən «ağ lay» tavalarla üzlənmiş, 24 ədəd işıq dirəyi quraşdırılmış, 8 ədəd müasir tipli oturacaq və zibil qutuları qoyulmuşdur. Parkda abadlıq işləri davam etdirilir.

1 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyi yeni yarandığı üçün müəyyən nöqsanlara yol vermiş, müvafiq təşkilatlarla koordinasiya işini zəif qurmuşdur.

Hörmətli başçımız M.Camalovun 2014-cü ildə görüləcək işlər barəsində qarşımıza qoyduğu vəzifələrin öhdəsindən layiqincə gələcəyimizə çalışacağıq.

Məruzə ətrafında müzakirələrdə Şirvan şəhər İcra Hakimiyyətinin mənzil-təsərrüfatı idarəsinin rəisi Ə.Gülməmmədov, kommunal kombinatı idarəsinin rəisi Ə.Ağayev, şəhər sakini İ.İsmayılov çıxış etdilər. Onlar görülən və görüləcək işlərdən danışdılar.

Zala qoyulmuş mikrafonlara yaxınlaşanlar təkliflərini, arzularını, xahişlərini söylədilər.

Hesabat yığıncağında Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov geniş çıxış etdi. Başçı 1 nömrəli Sahə İnzibati Ərazi Dairəsinin yarandığı 9 ay ərzində gördüyü işləri qeyd etməklə yanaşı, əsas diqqəti nöqsanlara yönəltdi. Nöqsanların aradan qaldırılması istiqamətində tapşırıq və göstərişlərini verdi.

Sakinlərə daha həssas, diqqətlə yanaşmanın vacibliyi vurğuladı.

**«İŞIQ»**

# ŞƏHİDLİK ZİRVƏSİ

**Hər il yanvarın 20-si yaxınlaşanda başqa günlərdən daha fərqli yazmaq istəyi dolur içimə. Uşaq yaddaşımın səhifələrini vərəqlədikcə (1990-cı ildə mən məktəbli idim) o müdhiş, qarışıq günlər qara-boz lent kimi gözlərimin önündən keçir. Ölkəni bürüyən mitinqlər, insanlarımızın üzündəki qətiyyət, azadlıq yanğısı, sabaha ümid, istər-istəməz uşaqlıq xatirələrimdən boy göstərir.**



Televiziyada izlədiyimiz hətta cizgi filmlərinin də bizə siyasi təsir bağışlaması o dövrün ictimai ab-havasının necə deyərlər, 7-dən 77-yə kimi hər kəsi öz ağuşunda saxlaması, həmin o faciə gecəsinin səhəri orta məktəbdə heç kəsin göstərişi olmadan boynumuzdan qırmızı pioner qalstukunu açıb ayaqlarımızın altına atmağımız heç zaman unudulmayacaq xatirələr kimi yaddaşımda dərin iz buraxmışdır. Bəli, o dövrdə Azərbaycan insanı haqq etdiyi azadlığı, millət kimi müstəqil dövlətdə yaşamaq arzusunu bütün dünyaya göstərə bildi. Bu yolda qanını axıtdı. Bayrağımızdakı rənglərin daşıdığı mənalara uyğun yaşamaq istəyini təzahür etdirdi. Yüzlərlə oğul-qızlarımız «uf» demədən canını fəda etdi. Biz azad, boyunduruqsuz yaşamağa layiq olduğumuz kimi şərəflə ölməyi, şəhid olmağı da bacaran millət olduğumuzu göstərdik.

O dövrdə ağlı kəsən hər bir vətəndaşımızın xatirində 20 Yanvar faciəsi silinməz izlər buraxdı. Məhz bu izlərdən yola çıxaraq biz müstəqil dövlətimizi qura bildik, onu bu günki inkişaf mərhələsinə çatdırdıq.

Əziz oxucular, yazının bu yerində 1990-cı il 20 Yanvar hadisələri zamanı şəhid olmuş bütün soydaşlarımızın xatirəsini ehtiramla yad edərək şəhərimizin yetirməsi olan Elçin İmanovun da müqəddəs ruhuna Allahdan rəhmət diləmək istəyirəm.

Artıq mən Elçin haqqında ikinci dəfədir ki, yazıram və hər dəfə də bu həmyerlimizin şəkillərdən gördüyüm qətiyyətli, xeyirxah, vətənsevər baxışlarını böyük duyğusallıqla xatırlayıram.

Tibb Universitetinin tələbəsi idi E.İmanov. Şirvan şəhər (keçmiş Əli Bayramlı) 10 nömrəli tam orta məktəbi bitirmişdi. Ona dərs deyən məktəb müəllimlərini dindirərkən Elçinin haqqında elə təsirli, xoş sözlər söyləyirlər ki, istər-istəməz qürur bürüyür insanı, bir vaxtlar Elçinlə birgə havasını udduğumuz, suyunu içdiyimiz bu şəhəri, bu ölkəni daha böyük məhəbbətlə sevirsən.

Ötən yazımda Elçinin adına bənzədiyini, adının mənası kimi yaşadığını və əbədiyyətə qovuşduğunu yazmışdım. «El üçün» şəhid olduğunu bildirmişdim. Bu dəfə isə Elçinin soyadına diqqət çəkmək istəyirəm. Bəli, el uğrunda şəhid olmaq, həyatından, şirin canından keçmək insandan yenilməz cəsarət, sarsılmaz vətənpərvərlik hissi və əlbəttə ki, böyük Allah sevgisi- iman istər. Cəsarətinə, vətənpərvərlik hissinə və imanına dərin ehtiram hissi ilə ruhun şad olsun, Elçin İmanov!!!

**Nurlan MALİKOĞLU**

# QƏHRƏMANLIQ SALNAMƏSİ YAZDI ŞƏHİDLƏR

**1990-cı ilin 20 Yanvar hadisələri xalqımızın qan yaddaşında əbədi qalacaq bir tarixi hadisədir. Bu gün həmin tarixdən 24 il ötüb. Xalqımızın azadlığı və istiqlalı uğrunda canlarından keçən şəhidlərimizi zaman-zaman xatırlayacağıq. Ulu öndər Heydər Əliyev bu qırğını xalqımıza vurulan ən böyük zərbə, hərbi təcavüz və terror adlandıraraq demişdir: «20 Yanvar 1990-cı il Azərbaycan tarixində ən böyük faciəli gündür. Amma eyni zamanda o gecə, o gün Azərbaycan xalqı öz qəhrəmanlığını, rəşadətini və şəhidlik zirvəsinə qalxa bilməsini bütün dünyaya nümayiş etdirdi. Ona görə də bu gün biz həmişə qəm, kədər içində oluruq. Amma eyni zamanda böyük qürür hissi keçiririk ki, xalqımız qəhrəman xalqdır, əyilməz xalqdır, sınmaz xalqdır».**

1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə ərazi bütövlüyünə qarşı yönəlmiş təcavüzə etiraz edən, haqq-ədalətin bərqərar olunmasını istəyən, azadlıq və müstəqillik uğrunda şərəfli mübarizə aparan xalqımzın inam və iradəsini qırmaq və cəzalandırmaq, beləliklə Dağlıq Qarabağ məsələsini Ermənistanın xeyrinə həll etmək məqsədi ilə M.Qorbaçovun rəhbərlik etdiyi totalitar Sovet rejiminin həyata keçirdiyi hərbi təcavüz və terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı yönəldilmiş ən qanlı hadisələrdən biri baş verdi.



Yanvarın 19-dan 20-nə keçən gecə xalqın azadlıq və istiqlaliyyət mübarizəsini boğmaq məqsədilə Sovet imperiyası fövqəladə vəziyyət elan etmədən Bakı şəhərinə böyük hərbi qüvvə yeritmiş, günahsız insanları qanına qəltan etmiş, misli görünməmiş vəhşiliklər törətmişdir. Azərbaycanda fövqəladə vəziyyət elan edilməsinə 7 saat qalmış 11 minlik Sovet ordusu Bakıya yeridildi. «Zərbə» şərti adı ilə Azərbaycan xalqına qarşı amansız əməliyyata başladılar. Həmin gecə Bakı şəhərində 131 nəfər xüsusi amansızlıqla qətlə yetirilmiş, 744 nəfər yaralanmış, 841 nəfər həbs olunmuşdu. Həlak olanlar arasında qadınlar, uşaqlar, qocalar da az deyildi. Hərbçilər tərəfindən 200 ev və mənzil talan edilərək yandırılmış, 80 avtomaşın, o cümlədən təcili yardım maşını, külli miqdarda şəxsi və dövlət əmlakı məhv edilmişdi. SSRİ DTK-nın «Alfa» qrupu yanvarın 19-da saat 19-27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı.

Bu hadisələr Sovet dövlətinin başçısı M.Qorbaçovun göstərişi ilə həyata keçirilmişdi.

20 Yanvarda şəhid olanlar arasında Ülvi Bünyadzadə, Fəxrəddin İsayev, İlham Allahverdiyev, İlqar Qarayev və başqaları sırasında şəhərimizin 10 nömrəli tam orta məktəbinin məzunu Elçin İmanovun da adı vardır.

20 Yanvar Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrundakı mübarizədə qəhrəmanlıq rəmzinə çevrilib. Şəhidlər Xiyabanında alovlanan əbədi məşəl isə müstəqillik yolumuzu daim işıqlandırır. Bu işığın gücü ilə də bizlər Sizləri, Sizin qəhrəmanlığınızı unutmayacağıq, əziz şəhidlər!

**Mehran ƏHMƏDQIZI,**
**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin müəllimi**

# YENİ İL, YENİ VƏZİFƏLƏR

**Böyük Yaradanın bizə bəxş etdiyi bir ili də başa vurduq. «2013-cü il nə ilə yadda qaldı?!», «Qarşımıza qoyulan vəzifələri necə yerinə yetirdik?!» İstər-istəməz bu suallarla üz-üzə dayanırıq. Təvazökarlıqdan kənar olsa da deyim ki, işgüzar kollektivimiz vəzifə borclarını imkanları daxilində layiqincə yerinə yetirmişdir.**

İl ərzində sakinlərimizə mədəni xidmət işinin, asudə vaxtlarının səmərəli təşkili, eləcə də gənclərə vətənpərvərlik hisslərinin və azərbaycançılıq ideyalarının aşılanması, təbliği sahəsində müxtəlif, rəngarəng tədbirlər həyata keçirmişik.

Keçirilən mədəni-kütləvi tədbirlərin xeyli hissəsi dövlət bayramları, əlamətdar və tarixi günlərə həsr olunmuşdur.

Respublika Günü, Milli Qurtuluş Günü, Dövlət Müstəqilliyi Günü, 20 Yanvar faciəsinin 23-cü ildönümü, 2 Fevral Gənclər Günü, Beynəlxalq Ana dili Günü, Xocalı soyqırımının iyirmi birinci ildönümü, 31 mart Azərbaycanlıların soyqırımı Günü, Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününə həsr olunmuş tədbirlər maraqla qarşılanmışdır.

Xalqımızın sevimli bayramlarından biri- Novruz bayramı münasibətilə şəhərin ayrı-ayrı məhəllələrində, Hacıqəhrəmanlı, Bayramlı qəsəbələrində, park və meydanlarda ilin axır çərşənbəsi, silsilə bayram tədbirləri təşkil olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə keçirilmiş yubiley tədbirləri diqqəti cəlbedən olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadənin anadan olmasının 130, akademik Zərifə Əliyevanın 90 illiyinə həsr edilmiş bir sıra mədəni-kütləvi tədbirlər təşkil olunmuşdur.

2013-cü ildə keçirilmiş tədbirlər sırasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə mühazirələr, söhbətlər, disputlar, tematik gecələr, açıq dərslər geniş yer almışdır. Yubiley münasibətilə tədbirlər bütün mədəniyyət müəssisələrində keçirilmişdir. Heydər Əliyev Mərkəzi və tarix-diyarşünaslıq muzeyi bu cəhətdən xüsusilə fərqlənmişlər.



*Əziz ABBASOV,*
*şəhər mədəniyyət və turizm şöbəsinin müdiri*

Ümummilli lider Heydər Əliyevin adını daşıyan mərkəzdə «Yüksəlişə aparan yolların qüdrətli bələdçisi», «Xalqa nicat verən dahi», «Heydər Əliyev və mədəniyyət», «Azərbaycan dilinin hamisi», «Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz», «Heydər Əliyev və Şirvan» adlı mühazirələr oxunmuş, «Böyük və şərəfli həyat yolu», «Heydər Əliyev yaddaşlarda necə qalıb?», «Mənalı ömür yolu» adlı tarix dərsləri, «Şəxsiyyət və zaman» adlı intellektual bilik yarışması keçirilmişdir. «Heydər Əliyev və müstəqil Azərbaycan» adlı dəyirmi masa, «Heydər Əliyev Azərbaycanın unudulmaz lideridir» mövzusunda elmi-nəzəri konfrans maraqla qarşılanmışdır.

Ulu öndərin 90 illik yubileyi münasibətilə şəhər tarix-diyarşünaslıq muzeyi xüsusi tədbirlər planı hazırlamışdır. Həmin tədbirlər planına əsasən «Heydər Əliyev-90» adlı sərgi, «Heydər Əliyev və diyarımız» silsiləsindən «Diyarımızın tarixindən», «Azərbaycan Heydər Əliyevin rəhbərliyi dövründə.(1969-1982)», «Müstəqil Azərbaycan Heydər Əliyevin rəhbərliyi dövründə (1993-2003)» və «Liderlik missiyası» mövzularında tarix dərsləri keçirilmişdir. Həmin tədbirlərdə yüzlərlə dinləyici iştirak etmişdir. Mədəniyyət müəssisələrimizdə 2013-cü ildə keçirilmiş digər mədəni-kütləvi tədbirlərin mövzu dairəsi çox geniş, müxtəlif sahələri əhatə etmişdir.

Gənclərə vətənpərvərlik hisslərinin və azərbaycançılıq ideyalarının aşılanması və təbliği əsas vəzifələrimizdəndir. Azərbaycanın Milli Qəhrəmanları, Vətən uğrunda şəhidlər, torpağımızın müstəqilliyi, hərbi vətənpərvərlik mövzularına daha çox müraciət etmişik. Hər ay mədəniyyət müəssisələrimizdə bu mövzuda 10-15 tədbir keçirmişik.

Gənclərin həqiqi hərbi xidmətə yola salınması mərasimlərində mərkəzi mədəniyyət evinin instrumental ansamblının çıxışları təşkil olunmuşdur. Aprel ayında gənclərin orduya yola salınma mərasimləri ümummilli lider Heydər Əliyevin adını daşıyan meydanda təşkil olunmuş və burada «Şəfəq» klubunun «Kür» instrumental ansamblı çıxış etmişdir.

«Şirvan» mədəniyyət evinin kollektivi FHN-nin «N» saylı hissəsini mədəni hamiliyə götürmüşdür. Mədəniyyət evinin bədii özfəaliyyət kollektivləri vaxtaşırı olaraq hərbi hissənin əsgər və zabitləri qarşısında çıxış etmişlər.

Keçirilmiş tədbirlər sırasında gənclərin sağlam həyat tərzi, gənc ailələrin möhkəm təməl üzərində qurulması, oğlan və qızların cəmiyyətdə fəal həyat mövqeyi kimi mövzular da mühüm yer tutmuşdur.

Gənc istedadların axtarılıb üzə çıxarılması, onların hərtərəfli inkişafı üçün şərait yaradılması, bədii özfəaliyyət kollektivlərinə cəlb olunması, müsabiqə və festivallarda iştirakının təmin edilməsi, maddi və mənəvi stimullaşdırılması məsələlərinə mədəniyyət və turizm şöbəsi tərəfindən xüsusi diqqət yetirilmişdir.

Bədii özfəaliyyət kollektivinin üzvü, uşaq musiqi məktəbinin şagirdi on dörd yaşlı müğənni Səbuhi Abdullazadə XI Uluslararası Türkcə Olimpiadası çərçivəsində Azərbaycanda keçirilmiş müsabiqədə qalib çıxaraq respublikamızı üçüncü dəfə Türkiyədə təmsil etmiş, ölkəmizin müxtəlif şəhərlərində təşkil olunmuş konsertlərdə uğurla çıxış etmişdir.

Xalq yaradıcılığı və bədii özfəaliyyət işi klub müəssisələrinin fəaliyyətində mühüm yer tutmuşdur.Bu müəssisələrdə xalq yaradıcılığına, musiqi sənətinə maraq göstərən həvəskarlar hesabına çoxsaylı kollektivlər yaradılmışdır. Bu kollektivlərdən mərkəzi mədəniyyət evində fəaliyyət göstərən xalq teatrının, «Şəms» instrumental ansamblının, «Şirvan» mədəniyyət evində fəaliyyət göstərən «Şirvan» instrumental ansamblının, rəqs kollektivinin, «Şəfəq» klubunda fəaliyyət göstərən «Kür» instrumental ansamblının fəaliyyəti xüsusilə təqdirəlayiqdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq olunmuş «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013- 2018-cü illər üçün Dövlət Proqramı»nın icrası ilə əlaqədar tədbirlər də vaxtaşırı həyat keçirilir.

Mərkəzi Mədəniyyət evində uşaq, yeniyetmə və gənclərin zərərli vərdişlərdən çəkindirmək üçün çoxsaylı kurs və dərnəklər təşkil edilmişdir. Kurs və dərnəklərin məşğələlərində «Sağlam ailə cəmiyyətin və dövlətin güclü təməlidir» mövzusunda söhbətlər aparılmışdır.

Şəhər mərkəzi kitabxanasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə qarşı təbliğat məqsədilə «Narkomaniya həyatımızın bəlasıdır», «Narkomaniyaya yox deyək!», «Narkomaniyaya qarşı ümumxalq mübarizəsi aparılmalıdır» və s. mövzularda mühazirələr oxunmuş, kitab sərgiləri təşkil olunmuş, söhbətlər təşkil edilmişdir.

Uşaq musiqi məktəbində narkomaniya və onun acı nəticələri mövzusunda vaxtaşırı söhbətlər təşkil olunmuşdur.

Dövlət rəsm qalereyasında məktəblilərin narkomaniya ilə mübarizə mövzusunda çəkdikləri şəkillərdən ibarət sərgilər təşkil edilmişdir.

Əlbəttə bir yazıda bir ildə görülən işləri qeyd etmək mümkün deyil. Amma bu faktdır ki, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmək üçün imkanlardan maksimum istifadə etməyə çalışmışıq. Nailiyyətlərə şəhərimizin ümumi inkişafında müstəsna xidmətləri olan Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalovun mədəniyyətə göstərdiyi xüsusi qayğı hesabına nail olmuşuq.

Yeni il yeni vəzifələr deməkdir. Çalışacağıq ki, göstərilən qayğı və köməyə əməli işimizlə cavab verək.

# ENERGETİKLƏRİMİZ «SƏNAYE İLİ»NDƏ DƏ FƏRQLƏNƏCƏKLƏR



**Gülməmməd RZAYEV,**

***«Şirvan İES» MMC-nin İqtisadiyyat şöbəsinin rəisi***

**«Şirvan İES» MMC Avropada ilk dəfə tikilmiş açıq tipli istilik elektrik stansiyasıdır. Hər birinin gücü 150 MVt olan 7 enerji bloku ilə ümumi gücü 1050 MVt olmuşdur.**

1-ci enerji bloku 1962-ci ildə, sonuncu isə 1968-ci ildə istismara verilmişdir.

«Şirvan İES» MMC həm təbii qaz, həm də mazutla işləyə bilir. 7-ci enerji bloku 2009-cu ildə istismardan çıxarılıb.

«Şirvan İES» MMC istismara verildiyi vaxtdan indiyə kimi 268,3 milyard kVt saat elektrik enerjisi hasil edib. Ən yüksək istehsal 1975-1987-ci illərə təsadüf edir. Hər kVt saat elektrik enerjisinin istehsalına düşən şərti yanacağın xüsusi sərfi 361-440 qr\kvtsaat olmuşdur.

«Şirvan İES» MMC-nin fəaliyyəti dövründə müəssisənin vəsaiti hesabına şəhərdə 28 çoxmərtəbəli yaşayış binası, 2 uşaq bağçası, tədris kombinatı, stadion, 320 yerlik pioner düşərgəsi, 2 yataqxana binası və 25 ədəd fin evi tikilib işçilərin və şəhər sakinlərinin istifadəsinə verilmişdir.

Mingəçevir şəhərində tikilən (1981-1990-cı illər) «Azərbaycan» İES işə düşənə kimi «Şirvan İES» respublika energetikasının flaqmanı hesab olunmuşdur.

Şəhərimizin iqtisadi inkişafının təmin olunmasında «Şirvan İES» MMC-nin də özünəməxsus xüsusi payı olmuşdur. Müəssisəmizin onlarla işçisi ölkə iqtisadiyyatının inkişafındakı xidmətlərinə görə keçmiş SSRİ-nin, müstəqil Azərbaycan Respublikasının mükafatları ilə təltif edilmişdir.

Həmişə olduğu kimi, «Şirvan İES» MMC 2013-cü ildə də qarşıya qoyulmuş tapşırıqları tam yerinə yetirmişdir. 2 mlrd.479 mln.kvts istehsal tapşırığına qarşı 2 mlrd.488mln.791 min kvts elektrik enerjisi istehsal edilməklə, tapşırığa 100,4% əməl etmişdir.

1 kvts elektrik enerjisinin istehsalına şərti yanacaq norması 440, 821 qram planlaşdırıldığı halda faktiki 440,0 qram olmaqla 1836 ton şərti yanacağa qənaət edilmişdir.

Hesabat dövründə əmtəə məhsulunun həcmi 50 mln.906 min manat olmuşdur.

Payız-qış mövsümünü normal keçirmək üçün stansiyada hazırlanmış tədbirlər planına müvafiq olaraq təmir işləri aparılmışdır. 3 saylı enerji blokunda uzadılmış orta təmir, 5 saylı enerji blokunda isə orta təmir işləri aparılmışdır.

Artıq «Şirvan İES» işləmə resursunu başa vuraraq fiziki-mənəvi cəhətdən köhnəlmişdir. Buna baxmayaraq, fədakar energetiklərimizin səyi nəticəsində bu gün də enerjisistemdə öz dayanıqlı və fasiləsiz işini davam etdirir.

Lakin fiziki-mənəvi cəhətdən köhnəlmiş stansiyanın bu gün ekoloji təmiz, təhlükəsiz, iqtisadi cəhətdən qənaətli stansiya ilə əvəz olunmasının vacibliyi nəzərə alınaraq Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən «Şirvan İES» MMC-nin yanında «Cənub» Elektrik Stansiyası tikilib istifadəyə verilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev «Cənub» Elektrik Stansiyasının təməlqoyma və işə buraxılması mərasimində şəxsən iştirak etmişdir və bununla da şəhərimizin simvolunu yenidən özünə qaytarmışdır.

Bu stansiyada ildə təxminən 6 mlrd.kvt saat elektrik enerjisi istehsal olunacaq, 750 mln.m3 təbii qaza qənaət ediləcək.

Hal-hazırda «Cənub» ES 650 MVt gücü ilə işləyir. Şirvan şəhərinin strateji mövqeyi mühüm əhəmiyyət kəsb etdiyindən «Cənub» Elektrik Stansiyası ölkə iqtisadiyyatına öz töhfəsini verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2014-cü il «Sənaye ili» elan olunmuşdur.

«Şirvan İES» MMC-nin energetikləri ənənələrini davam etdirərək 2014-cü ildə də qarşıya qoyulan tapşırıqları tam yerinə yetirmək üçün bütün qüvvələrini səfərbər edəcək və faydalı əmək fəaliyyətlərini «Cənub» Elektrik Stansiyasında davam etdirəcəklər.

**Müəssisəmiz 50 ilə yaxındır ki, şəhərimizin iqtisadi xəritəsinə daxil olmuşdur. Yağ emalı zavodu, Yağ-piy kombinatı, Yağ-piy açıq tipli səhmdar cəmiyyət kimi fəaliyyət göstərmişdir. 2006-cı ildən özəl şirkət olmuşdur. «MKT» İstehsalat Kommersiya MMC-nin Şirvan «Yağ-piy» filialı adlanır.**

# NAİLİYYƏTLƏRƏ GÖRƏ ONLARA MİNNƏTDARIQ

Uzun illərdir ki, mən bu kollektivin üzvüyəm. Çətin, eyni zamanda sevincli anlarımız çox olub. Onu bilirəm ki, işgüzar, səmimi kollektivimiz çətinlikləri birgə aradan qaldırmış, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirməyə səy göstərmişdir.

Müstəqillik qazandıqdan sonra saysız-hesabsız problemlərlə rastlaşmışıq. Bunlara baxmayaraq yağ emalçılarımız səyləri, işgüzarlıqları hesabına vəziyyətdən çıxmış, müəssisəni qabaqcıllar sırasına çıxarmışlar.

Bu yazımda heç də bütün işgüzar, təcrübəli işçilərin adını çəkə bilməyəcəyəm...

Müəssisənin hazırkı baş mühəndisi Nəriman Əlixanov 1969-cu ildən burada çalışır. O, enişli-yoxuşlu, zəhmət dolu ömür yolu keçib. Müxtəlif vəzifələrdə, ictimai işlərdə də fərqlənib.

10 ilə yaxındır N.Əlixanov baş mühəndisdir. Təcrübəli mühəndis müəssisənin ahəngdar işləməsi üçün əlindən gələni əsirgəmir.

Eyni xoş sözləri istehsalat sahəsinin rəisi Rasim Fətiyev, buxar-qazan sexinin rəisi Vaqif Şirinov, usta Eynulla Novruzov, çilingər İlqar Salmanov, yükləyici Qoca Babayev və başqaları haqqında da demək mümkündür. Onlar uzun illərdir ki, bu kollektivdə çalışırlar. İşgüzar əməkləri ilə fərqlənir, bu gün də nümunə göstərir, zəngin təcrübələrini gənclərdən əsirgəmirlər.

Belə zəhmət adamların səyi nəticəsində üzərimizə düşən tapşırıqları vaxtında layiqincə yerinə yetiririk.

Ötən il kollektivimiz üçün uğurlu oldu. Tapşırıqlara, sifarişlərə layiqincə əməl olundu. Bir faktı qeyd edim ki, 2013-cü ildə müəssisədə 1383 ton 910 kq qara yağ istehsal olundu. Bu nəzərdə tutulduğundan çoxdur.

Nailiyyətlərə adları çəkilən və çəkilməyən zəngin təcrübəyə malik işçilərin və gənclərin hesabına nail oluruq.

Biz 2014-cü ilə də uğurla başlamışıq. Ölkə Prezidenti İlham Əliyev 2014-cü ili «Sənaye ili» elan etmişdir. Çalışacağıq ki, bu ili də uğurlu göstəricilərlə başa vuraq.

Bu gün müəssisənin bütün sahə və sexləri ahəngdar işləyir. Mexaniki-təmir sexinin, çiyid təmizləmə, ələmə, yağ presləmə, elektrik, buxar-qazan, nəqliyyat, yağ-ratinasiya sahələrinin kollektivləri əzmkarlıq nümayiş etdirirlər.

**Yaqus KƏRİMOV,**
**«MKT» İstehsalat Kommersiya MMC Şirvan şəhər Yağ-piy filialında təhlükəsizlik texnikası və əməyin mühafizəsi üzrə aparıcı mühəndis,**
**«İşıq»ın ştatdankənar müxbiri**

# «MİLLİ QÜRUR GÜNÜMÜZ»

**«20 Yanvar» faciəsinin 24-cü ildönümü münasibətilə Şirvan şəhər Mərkəzi kitabxanasında «Milli qürur günümüz» adlı tədbir keçirilmişdir.**

İlk növbədə tədbir iştirakçıları 20 Yanvar şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Tədbirdə İ.Nəbiyev, S.Qarayev, V.Xudiyeva, B.Həsənova. F.Hacıyeva, F.Amanəliyeva çıxış edərək 20 Yanvar faciəsinin xalqımızın ömür səhifəsinə qanlı tarix kimi həkk olunmasından danışdılar.Onlar dedilər ki, SSRİ Müdafiə Nazirliyinin xüsusi təyinatlı «ALFA», SSRİ DTK-nın «A» təxribat qruplarından ibarət qoşunların 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya daxil olması nəticəsində 131 mülki şəxs öldürülmüş, 600-dən çox adam yaralanmışdır. 800-dən çox adam qanunsuz həbs edilmişdir. Öldürülənlər arasında 5 millətin nümayəndəsi, 20-dən çox qadın ,uşaq olub.

Adamlar xüsusi qəddarlıqla və yaxın məsafədən güllələnmişdilər. Xəstəxanalar, «təcili tibbi yardım» maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdülər.




Adamlar bundan əlavə süngübıçaqla qətlə yetirilmişdilər. Onların arasında hər iki gözü tutulmuş vətəndaşımız, yetkinlik yaşına çatmayanlar, qadınlar , qocalar, şikəstlər də var idi. M.Qorbaçovun və ətrafındakıların «millətçi ekstremistlər» adlandırdıqları bunlar idimi?»

«20 Yanvar» kədərli günümüz olmasına baxmayaraq həm də milli qürur günümüzdür. Çünki, vətənini sevən insanlar şəhid olsalar da sübut etdilər ki, azadlıqları yolunda canlarından belə keçməyə hazırdırlar.

Çıxış edənlər onu da vurğuladılar ki, xalq heç zaman öz şəhidlərini unutmayacaq, əksinə, onları qəlblərində yaşadacaq, daima yad edəcəkdir.

Bu il xalqımız 20 Yanvar hadisələrinin 24-cü ildönümünü qeyd edir. İgid övladlarımızın fədakarlıqları məhəbbətlə xatırlanır, onların əziz xatirəsi böyük ehtiramla yad edilir.

Şəhid ruhları o vaxt rahatlıq tapacaq ki, işğal olunmuş torpaqlarımız azad olunacaq. O gün isə uzaqda deyil. Əminliklə vurğulandı: Qarabağ torpağı sülh danışıqları ilə geri alınmazsa müzəffər ordumuz öz sözünü deyəcək. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə tezliklə erməni tapdağı altında inləyən Qarabağ torpağı azad ediləcək, qaçqın və köçkünlərimiz dədə -baba yurdlarına dönəcəklər.

Tədbir şəhər 18 №-li məktəblisey şagirdlərinin hazırladığı bədii kompazisiya ilə başa çatdı.

**Əsmər RƏHİMOVA,**
**mərkəzi kitabxananın işçisi**

## QAN YADDAŞI

*20 Yanvar-Ümumxalq Hüzn Günü*
*31 Mart- Azərbaycanlıların Soyqırımı Günü*

**UNUTMA!**

**Xocavənd 18.02.1992**
**Xocalı 26.02.1992**
**Şuşa 08.05. 1992**
**Laçın 17-18.051992**
**Kəlbəcər 03-06.04.1993**
**Ağdərə 17.06.1993**
**Ağdam 23.07.1993**
**Cəbrayıl 23.08.1993**
**Füzuli 23.08.1993**
**Qubadlı 30-31.08.1993**
**Zəngilan 29-30-10.1993**

**Dağlıq Qarabağ ərazisi: Şuşa, Xankəndi,Xocalı, Əsgəran, Xocavənd, Ağdərə (ümumi sahəsi: 4400 kv/km.)**
**Erməni təcavüzkarları tərəfindən işğal edilib.**

# 20 YANVAR FACİƏSİ RƏNGLƏRİN DİLİ İLƏ

**Şirvan Dövlət Rəsm Qalereyasında 20 Yanvar faciəsinin 24 illiyi ilə bağlı «Şəhidlik zirvəsi» adlı məktəblilərin rəsmlərindən ibarət sərgi açıldı.**



Sərgidə şəhər məktəblərindən şagird və müəllim kollektivi, məktəbəqədər müəssisələrdən uşaqlar iştirak edirdilər.

Öncə şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi.

Sərgini giriş sözü ilə qalereyanı direktoru Ə.Hüseynov açdı. Sonra qalereyanın əməkdaşı B.Abdullayeva «Şəhidlik zirvəsi» adlı mühazirə ilə çıxış etdi.

Qalereya dərnək üzvlərinin sulu boya, akvarel və karandaşla çəkdikləri rəsmlər şəhidlərin qəhrəmanlığına ithaf olunmuşdur. 20 Yanvar faciəsi rəsmlərin dili ilə tamaşaçıya çatdırıldı.

Sərgi iştirakçıları çəkilmiş rəsmləri maraqla izlədilər. Sərginin təşkilinə görə rəsm qalereyası əməkdaşlarına öz təşəkkürlərini bildirdilər.

20 Yanvar faciəsinin 24 illiyi ilə əlaqədar sərgidə 30 ədəd rəsm əsəri nümayiş etdirilmiş və 100-ə yaxın tamaşaçı iştirak etmişdir.

**Ç.VƏLİYEVA,**
**Şirvan Dövlət Rəsm Qalereyasının baş fond mühafizi**

# SAĞLIĞINDA QİYMƏT VERİN İNSANLARA...

*Bir arzum var, ay adamlar,*
*qoyun deyim,*
*Sağlığında qiymət verin insanlara,*
*Yaxşılara sağlığında yaxşı deyin,*
*Sağlığında yaman deyin yamanlara.*
*Yalnız, yalnız sağ olanda,*
*Hər kəs əsil qiymətini bilər onda,...*

Sevimli, mərhum şairimiz Cabir Novruzovun «Sağlığında qiymət verin insanlara» şeirindən bir parça ilə bu yazıya başlamağım təsadüfi deyil. Doğrudan da insan qiymətini vaxtında, özü də sağlığında alanda çox yaxşı olur. Çəkilən zəhmətinin itmədiyini görəndə daha böyük ruh yüksəkliyi ilə çalışırsan.

Ötən il şəhərimizin 50 illiyi münasibətilə bir qrup sakinimizə ölkə başçısının sərəncamı ilə fəxri adlar verildi. Açığını deyim ki, bu şəxslərin əməklərinin qiymətləndirilməsi məni çox sevindirdi. Onların sırasında cərrah-onkoloji dispanserin baş həkimi Ədalət Cavadovun adını oxuyanda sevincim birə beş artdı. O, «Əməkdar həkim» fəxri adına layiq görülmüşdü.

Səmimi insan, bacarıqlı cərrah Ə.Cavadovla çoxdan tanışam. Gənclik illərimizdə də onun şəfalı əllərinin «qüdrət»inin şahidi olmuşam.

Xəstələnmək təbii haldır. İnsan belə halda inandığı, etibar etdiyi ağxalatlıya müraciət edir. Mən və mənim kimi yüzlərlə pasient həkim Ədalət Cavadovun şəfalı əlləri hesabına həyata qayıdıb.

Yeni ilin ilk günlərində də mən yenidən Ə.Cavadova müraciət etməli oldum. Təcrübəli cərrahın düzgün diaqnozu, müalicəsi mənə yeni həyat bəxş etdi. Ciddi əməliyyata ehtiyac olmadığını görəndə xüsusilə sevindim.

Bir daha gördüm ki, Ə.Cavadov əsl, təcrübəli həkim, gözəl insandır.

«Əməkdar həkim» Ə.Cavadova öz adımdan, mənim kimi onun səyi ilə şəfa tapmış insanlar adından təşəkkür edirəm. Böyük Yaradan ona yar olsun.

**Tofiq İSGƏNDƏROV,**
**mühəndis-energetik,**
**əmək veteranı**

## HƏKİM MƏSLƏHƏTİ

# QRİP XƏSTƏLİYİ VƏ ONUN PROFİLAKTİKASI

**Havaların soyuması nəticəsində hazırda kəskin respirator virus olan qripin mövsümü artımı müşahidə olunur.**

Qrip yuxarı tənəffüs yollarının selikli qişalarının zədələnməsi ilə xarakterizə olunan kəskin viruslu infeksiyadır.

Qripin gedişinə görə tipik və atipik kliniki təzahürlərin ağırlığına görə yüngül, orta və ağır olur.

Tipik hallarda qrip kəskin olur. Xəstə titrəməyə və ya üşütməyə başlayır. Başı ağrıyır. Bir neçə saatdan sonra temperatur maksimal dərəcəyə çatır (38.5 -40c). Tərləmə, əzginlik hissi, əzələlərdə, sümüklərdə və iri oynaqlarda arası kəsilmədən ağrılar olur. Baş ağrısı güclənir, alın və alın gicgah nayihəsində qaş üstü qövslərdə və göz altında lokallaşır.

Bəzən xəstədə işıqdan qorxma halı baş verir. Xəstəliyin birinci sutkasında xəstələr burunda, udlaqda quruluqdan və acışmadan, burunun «tutulmasından» şikayətlənirlər. İki-üç gün ərzində onların əksəriyyətində güclü öskürək olur. Həmçinin yüngül zökəm, üç-dörd gün keçəndən sonra yaş öskürək başlayır.

Qripə tutulmuş xəstələrin çoxu evdə müalicə olunmalıdır. O qızdırmalı dövrdə yataq rejimində olmalıdır. Vitaminlərlə zənginləşdirilmiş, şüyüdlü, göyərtili pəhriz yeməklərin, bol maye qəbulu tövsiyə olunur. Qriplə xəstələnən şəxs həkimə müraciət etməlidir.

Maska taxmaq, əllərini teztez sabunla yumaq lazımdır. Gigiyena qaydalarına ciddi əməl edilməlidir. Xəstənin hərarəti səhər,axşam ölçülməlidir. Otağın havası tez-tez dəyişdirilməlidir. Lazım gələrsə kimyəvi profilaktika aparılmalıdır.



Xəstələr özbaşına dərman qəbul etməməli, mütləq həkimin nəzarəti altında olmalıdırlar.

Deyirlər ki soyuqdəymə müalicə olunarsa 7 günə, müalicə olunmazsa bir həftəyə keçir. Bu təbii ki, bir zarafatdır. Qrip xəstəliyi vaxtı həkim evə çağırılır və o lazımi məsləhətlər verir. Hərarət yüksək olduqda xəstə mütləq yataq rejiminə əməl etməlidir.

Xəstələrin bol maye (gündə 2, 3 litr) qəbul etmələri (şirə,çay, kampot, mineral sular) vacibdir.

Siz vaxtında həkimə müraciət edib sağlamlığınızı qoruya bilərsiniz. Hər kəsin sağlamlığı öz əlindədir. Çalışın ki, xəstələnməyəsiniz.

**Əlihüseyn ƏSGƏROV,**
**Şirvan şəhər mərkəzi xəstəxanasının həkimi**

## LAUREATI TƏBRİK EDİRİK!



Qəzetimizin fəal oxucularından biri-şair-qəzəlxan Elşad Şıxəliyev Yeni-2014-cü il ərəfəsində Azərbaycan Kütləvi İnformasiya Vasitələri işçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə «Qızıl qələm» Media Mükafatı Laureatının diplomu ilə təltif olunmuşdur.

«Qızıl qələm» laureatı E.Şıxəliyevi təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

# MİLLİ SEÇİM TURU

**Yanvar ayının 11-də «Evrovisin» mahnı müsabiqəsinin milli seçim turu keçirildi. Şirvan şəhər Mərkəzi Mədəniyyət evində keçirilən seçim turunda ətraf 6 rayondan (şəhərimizdən olan iştirakçılarla yanaşı) 9 nəfər gənc iştirak etdi.**

Qeyd edək ki, Ukraynadan olan münsiflər heyəti üzvlərinin qiymət verdiyi bu seçim turundan keçənlər öz bacarıqlarını növbəti mərhələdə sınamaq şansı qazanmışlar.

Şirvan şəhərinin təmsilçisi Təranə Əhmədova növbəti mərhələyə vəsiqə qazanmışdır.

**"İŞIQ»**


## Şirvan şəhər Mədəniyyət və Turizm şöbəsi 2014-cü ildə aşağıdakı malların alınması və işlərin görülməsi üçün kotirovka sorğusu elan edir

**1.Dəftərxana və təsərrüfat xərcləri**
**2.İdarənin digər xərcləri**
**3.Sosial-mədəni və məişət təyinatlı obyektlərin cari təmiri**
**4.Digər maşın və avadanlıqların alınması**
**5.Digər nəqliyyat xidmətlərinin xərcləri**
**6.İnventar və avadanlıqların alınması**

***Kotirovka komissiyası.***
***Əlaqə telefonu: 5-06-29.***



Baş redaktor: M.M.XƏLİLOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet "Apastrof"Çap evində ofset usulu ilə çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-06-60
Redaktor müavini: 6-19-18

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 1200